YAQUT NEYMƏTOV XATİRƏLƏRDƏ

ВОСПОМИНАНИЯ О ЯГУТЕ НЕЙМАТОВЕ

YAQUT NEYMƏTOV

HƏYAT YOLU VƏ ELMI FƏALIYYƏTI

Yaqut Məmməd oğlu Neymətov 24 fevral 1954 – cü ildə Gürcüstan SSR – nin Qardabani şəhərində dünyaya göz açmışdır.

1970 – ci ildə Qardabanidə orta məktəbi bitirdikdən sonra S.M. Kirov adına Azərbaücan dövlət universitetinin fizika fakültəsinə qəbul olmuşdur.

1973 – cü ildə təhsilini davam etdirmək üçün M.V. Lomonosov adına Moskva dövlət universitetinin fizika fakültəsinə göndərilmiş və həmin fakültəni 1977 – ci ildə müvəfəqiyyətlə bitirmişdir.

1977 – 1979 – ci illərdə ordu sıralarında olmuş və 1979 – cu ildən mühəndis, sonra isə, Ümumittifaq Elmi Tədqiqat İinsititunda fizika-texnika və radiotexnika sahələrində kiçik elmi işçi vəzifələrində işləmişdir.

1986 -1989-cu illərdə SSRİ dövlət aqrar texniki-iqtisadi araşdırmalar İnsititutunun sistemli araşdırmalar şöbəsində baş elmi işçi işləmişdir.

1984-cü ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmiləri namizədi alimlik adına layiq görülmüşdür.

1989-cu ildən A. A. Baykov adına SSRİ EA metallurgiya İnstitutunda aparıcı mühəndis, baş elmi işçi vəzifələrində çalışmışdır. O. eyni zamanda, həmin dövrdə Moskva Rabitə əlaqələri institutunun kafedrasında müəllimi vəzifəsində fəaliyyət göstərmişdir.



1992-ci ildən Böyük Pyotrun adına Russiya Fedarasiyasının müdafiə Nazirliyinin raket qoşunlarının strateji təyinatlı Hərbi akademiyasının aparıcı mütəxəssisi olmuşdur.

2001-ci ildə pedaqoji elmlər sahəsində dissertasiya müdafiə edərək, pedaqoji elmiləri doktoru alimlik dərəcəsini almış və Prezident yanında Rusiya Fedarasiyasının dövlət qulluğu akademiyasında müəllim işləmişdir.

2002-ci ildə professor elmi vəzifəsinə irəli çəkilmiş və elə həmin ildən ömürünün sonuna qədər Rusiya Fedarasiyasının innovativ texnologiyalarının inkişafı Fondunun Prezidenti vəifəsində çalışmışdır.

ЯГУТ НЕЙМАТОВ

ЖИЗНЕННЫЙ ПУТЬ И НАУЧНАЯ ДЕЯТЕЛЬНОСТЬ

Ягут Нейматов родился 24 февраля 1954 года в городе Гардабани Грузинской ССР. В 1970 году поступил на физический факультет Азербайджанского Государственного университета им. С.М.Кирова.

В 1973 году перевелся на физический факультет МГУ им. М.В.Ломоносова, который окончил в 1977 году.

С 1979 года работал инженером, а позже младшим научным сотрудником Всесоюзного НИИ физико-технических и радиотехнических измерений.

С 1986 по 1989 годы - старший научный сотрудник отдела системных исследований Всесоюзного НИИ технико-экономических исследований Госагропрома СССР.

В 1984 году защитил диссертацию на соискание ученой степени кандидата физико-математических наук.

1989 год - ведущий инженер и старший научный сотрудник Института металлургии им. А.А. Байкова АН СССР. В этот период преподавал в Московском институте связи.

1992 год - ведущий специалист Военной академии ракетных войск стратегического назначения им. Петра Великого Министерства обороны Российской Федерации.

В 2001 году защитил диссертацию на соискание ученой степени доктора педагогических наук.

В 2002 году получил ученое звание профессора. Преподавал в Российской академии государственной службы при Президенте Российской Федерации.

С 2002 года — Президент Фонда развития инновационных технологий Российской Федерации.

О МОЕМ ОТЦЕ – САМОМ ЛУЧШЕМ УЧИТЕЛЕ

Мой отец из тех редких людей, о которых говорят, что он полностью сделал себя сам. Родившись в небольшом городке Гардабани, тогда ещё Грузинской ССР, в простой многодетной семье, он проделал колоссальный жизненный путь, став по-настоящему выдающейся личностью, блестящим учёным, педагогом, прекрасным отцом и надёжным другом. Его биография – яркий пример того, что поистине талантливый человек – талантлив во всём.

Неординарное мышление, трудолюбие, стремление к новым знаниям у отца проявились ещё в детстве, во время учёбы в школе. Миновало более пятидесяти лет, но до сих пор его считают лучшим учеником за всю её историю.

Отец много рассказывал о ранних годах, о четырёх братьях и старшей сестре, о моих дедушке Мамеде и бабушке Мюдвяр. Это была обычная семья, дедушка работал учителем начальных классов, бабушка посвятила себя заботе о детях. Было непросто, с самого детства отцу приходилось много трудиться, помогать родителям по хозяйству. А свободное время он проводил за горами учебников, усердно учась. Можно сказать, что на всю жизнь книга стала для него лучшим другом. Он всегда относился к ней с любовью и уважением, много читал, постоянно расширяя свой кругозор.

Освоив все предметы "на отлично", перед отцом встал нелегкий выбор, по какой специальности идти дальше. Помню, как отец рассказывал, что настойчивость учителя по физике и определила его дальнейшую судьбу. В 1970 г. он самостоятельно отправляется в Баку и на общих основаниях поступает на физический факультет тогда ещё Азербайджанского, ныне Бакинского государственного университета. Через пару лет его как отличника переводят в столицу, в главный ВУЗ Советского союза, Московский государственный университет имени М.В.Ломоносова. По словам отца, это было трудное время. Несмотря на повышенную стипендию, приходилось во многом себя ограничивать. Кроме этого, нужно было в максимально короткий срок "поднатаскать" русский язык, который со временем стал для отца родным. Он говорил на нём так же блестяще, как и на азербайджанском. На обоих языках писал стихи, наполненные глубоким жизненным смыслом и поэтической красотой. Я сам неоднократно становился свидетелем того, как аудитория с замиранием сердца ловила каждое слово отца.

По окончании университета его призвали в армию. За два года службы на северных рубежах страны, включая Мурманск, отец прошёл путь от сержанта до старшего лейтенанта, стал наставником для молодых солдат, уделяя первостепенное значение патриотическому воспитанию. Сам отец всегда говорил, что у него три Родины – Грузия, в которой он родился, Азербайджан – край его культуры и языка, и Россия – ставшая для него домом, в котором он прожил более сорока лет.

Другим жизненно важным качеством отец считал дисциплину, предъявляя и к себе, и к окружающим самые высокие требования. Именно благодаря образцовой службе его рекомендовали в члены Компартии. По словам отца, был дан "зеленый свет" для поступления в аспирантуру, которая и положила начало его длительной, во всех смыслах успешной, научной карьере.

В 1984 г. отец получил степень кандидата физико-математических наук. Трудовую деятельность начал во Всесоюзном НИИ физико-технических и радиотехнических измерений. Затем стал старшим научным сотрудником

Всесоюзного НИИ технико-экономических исследований Госагропрома СССР и Института металлургии имени А.А.Байкова АН СССР, преподавал в Московском институте связи. В 1992 г. перешёл в Военную академию ракетных войск стратегического назначения имени Петра Великого Минобороны России.

Будучи многогранным человеком, особое внимание отец уделял образованию, подчёркивал принципиальную важность системной организации этого процесса. Именно в грамотной подготовке, правильном воспитании подрастающего поколения он видел главный залог процветания и благополучия государства. Думаю, поэтому в качестве дальнейшего научного направления он выбрал педагогику. В 2001 г. защитил докторскую диссертацию в Российской академии государственной службы при Президенте Российской Федерации, а через год получил звание профессора. Его новаторские идеи, нетривиальные подходы, концепции по выстраиванию образовательного процесса получили отражение в многочисленных трудах. Главный из них – изданная в 2003 г. фундаментальная монография "Образование в XXI веке", получившая самую высокую оценку экспертного сообщества, а для некоторых и вовсе ставшая "настольной книгой".

Естественно, обладая таким серьёзным уровнем интеллекта, отец старался передать свои знания нам – своим детям. Несмотря на загруженность, насыщенную профессиональную и творческую деятельность, наше с сестрой воспитание всегда имело для него приоритетное значение. Он не жалел ни сил, ни времени на наше обучение, зачастую лично выступал педагогом, привил нам интерес к познанию. Во многом благодаря его усилиям, мы с сестрой окончили один из самых престижных вузов нашей страны – МГИМО, а через несколько лет защитили там кандидатские диссертации.

Бесспорно, семья занимала главное место в жизни отца. С 1985 г. его верным спутником и другом была моя мама – Рахила, с которой он "рука об руку" прошёл свой путь, разделяя все радости и тяготы. Он никогда не скрывал, что живёт ради семьи, поэтому не прекращает двигаться вперёд. Он был образцовым семьянином, прекрасным отцом, надежным другом, поистине высоконравственным человеком.

Прошло три года, как он покинул этот мир. Никакие слова не могут описать боль утраты, никакое время не может вылечить эту кровоточащую рану. Отец, будучи глубоковерующим, говорил, что после смерти человек не покидает нас, он всего лишь переходит в другое состояние, в другое измерение, которое намного выше, намного чище, намного справедливее, чем наша бренная жизнь. И я знаю, что в этих словах истина, потому что их сказал мой отец.

АЗАД НЕЙМАТОВ

SƏNIN YOXLUĞUNA DÖZƏ BILMIRƏM

Sən gedəndə, çanim səninlə getdi,
Gənc ikən xiffətin qocaltdı məni.
Zaman başım üstən külək tək ötdü,
Dərd öz zirvəsinə ucaltdı məni.

Sən gedəndən qəlbim qəm içindədir,
Sevinc yox, elə bil daş üzümdədir.
Elə bil bu dünya dərd biçimdədir,
Ürəyim ağlayır, yaş gözümdədir.

Bu dərd dağdan ağır, dəryadan böyük,
Sənsiz bu dəryada üzə bilmirəm.
Cahan özü boyda çiynimdə bir yük,
Sənin yoxluğuna dözə bilmirəm.

AIDƏ YAQUT QIZI

24 февраля 2014 года - день, когда моему любимому папе исполнилось бы 60 лет... Но так больно от того, что история не знает сослагательного наклонения.

Прошло без малого два с половиной года, но я отчетливо помню твой первый день рождения без Тебя, твой долгожданный юбилей, то состояние, когда хотелось кричать о том, какой Ты невероятный человек, а в горле ком... Да и рука не поднималась написать ни строчки...

В голове крутился лишь один вопрос: Как? Как мы здесь без тебя?

И нескончаемая череда самых теплых воспоминаний о Тебе, о самом незаурядном человеке на свете.

Я не люблю громких слов и высказываний, потому что зачастую за ними абсолютно ничего не стоит. Но сейчас я отчетливо понимаю, что ни разу в жизни не встречала такого разносторонне развитого человека, умного и талантливого, красивого и энергичного, столь категоричного и искреннего, Такого прекрасного Отца, который был готов на все ради своей семьи, одновременно, и работавшего, и уделявшего очень много времени нам, своим детям, и, при всём при этом, всегда находившего время для самосовершенствования. Я до сих пор не понимаю, как тебе всё удавалось…

В наше время уже сложно встретить человека, который столько бы читал. Ты читал, читал каждую свободную минуту, а я еще всегда так по-детски удивлялась, как у тебя все укладывается в голове и как ты элементарно не устаешь. Причем интересовала Тебя совершенно разноплановая литература, начиная с квантовой физики, заканчивая поэзией. Твое чувство юмора, твоя феноменальная память... Можно перечислять бесконечно...

Ты установил очень высокую планку, без преувеличения, едва достижимую. Но, зная, сколько всего ты делал и сделал для нас, мы, твои дети, просто обязаны хотя бы к ней приблизиться...

АИДА ЯГУТ КЫЗЫ

QƏLƏBƏ RƏMZİ!

“Bir ezoterik hipotezaya görə, insanların adları ilə talehləri arasında sərt korrelyasiya yaşanır!”
prof. Yaqut Neymətov
(“Нестандартные суждения” kitabı)

Yaqut - (tündqırmızı rəngli - daşqaşlar sırasında qələbə rəmzi kimi qəbul olunmuş ən qiymətli daşlardan biridir).

Həqiqətən - Yaqutu tanıyanlar məmuniyyətlə təsdiq edərlər ki, o hər yerdə həmişə insanlar arasında qalib nümunəsi - qələbə rəmzi idi - uşaqlıqdan ta...

Altmış iki il öncə Qardabanidə (Qarayazıda) Məhəmməd müəllimin beşinci övladı (oğul) dünyaya gəldi.

Babası (ata) oğluna ad verdi Yaqut !

O biri qardaşları kimi altı yaşında 1-ci sinifə getdi. Yaqut ancaq onlardan fərqli olaraq onun qismətinə ibtidai sinif müəllimi öz babası - yəni öz atamız düşdü.

Hələ ibtidai sinifdə ikən oğul babasının ona verdiyi adı - öz istedadı və çalışqanlığı ilə doğrultmuşdu.

Yaqut məktəbi bitirəndə (Qardabani 3 saylı orta məktəb) artıq o – bir məzun kimi bütün müəllimlərin və şagirdlərin gözündə qələbə rəmzinə çevrilmişdi. Yaqut həmin ildə Azərbaycan Dövlət Universitetinə qəbul oldu (1970 – ci il). Onda mən Azərbaycan Neft Kimya İnstitunun II kurs tələbəsi idim.

1970 – ci ildən Azərbaycanda Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə əla və yaxşı oxuyan tələbələri təhsillərini davam etmək üçün SSRİ – nin paytaxtı və digər böyük şəhərlərindəki aparıcı ali təhsil ocaqlarına göndərdilər.

1973 – cü ildə mən öz institumuzdan, Yaqut isə Universitetdən təklif aldıq – Moskva şəhərinə getməyə. Mən ak-k Qubkin adına Moskva Neft Kimya İnstituna, Yaqut isə Lomonosov adına Dövlət Universitetinə.

Mən təklifə etiraz etdim çünki, o zaman bizim institut (Az-n Neft Kimya İnstitutu indiki Neft Akademiyası) nəinki SSRİ – də hətta dünya miqyasında öz sahəsi üzrə ən tanınmış və aparıcı institutlardan biri idi.

Yay tətili idi sevincək təkliflə gəldik vətənə - Qardabaniyə.

Yaquta görə təklifi dedik babamıza. Babam sərt bir şəkildə öz etirazını bildirdi və dedi:

"Universitet – universitetdi hara qəbul olmusan get orada da oxu"

Tətil bitdi biz bikef halda qayıtdıq Bakıya. (Tərs kimi bizdən böyük qardaşlarımızı –Müqəddəsi institutdan sonra Bakıda – Abdullanı isə Qardabani də (Gürcüstanda) əsgərliyə aparmışdılar)

Bakıda mən Yaquta belə məsləhət etdim:

Qardaş Bəyəm biz Bakıdan evə- Qardabaniyə gələndə Babamız biletlərimizi yoxlayır ki biz haradan gəlmişik? O dedi yox !

Dedim onda sən tezliklə hazırlaş Moskvaya. Yataqxana verirlər, təqaüd alacaqsan və mən də sənə hər ay sənin təqaüdün qədər təqaüd göndərəcəm. Elə də oldu.

Yaqutla bərabər iki tələbə yoldaşlarıda eyni təkliflə Moskvaya getmişdilər. Onların hər ikisi fərq imtahanlarını rus dilində verə bilmədiklərinə görə onları bir il geri yəni II kursda əyləmişdilər, Yaqut isə həmişə olduğu kimi fərq imtahanlarını əla verərək III kursa keçmişdi. Yenə də qələbə - artıq bu qələbə Yaqut sevərlərin hamısının qələbəsi idi.

Rəhmətlik babam bu işləri eşidib biləndə sifətində sevinc, gözlərindəki fəxarət hissi ilə barmağını mənə uzadıb dedi: "Bu işlər yəqin ki, səndən yan keçməyib".

Yaqutun qürbət eldə (tək-tənha) gecəli – gündüzlü zəhmətləri hədər getmədi.

O 1977 – 1979 - cu illərdə icbari əsgərlik - əyani aspiranturaya qəbul.

1984 – cü ildə elmlər namizədi

2000 – ci ildə elmlər doktoru

2002 – ci il professor adı almış.

Sonralar Rusiya Təbii elmlər Akademiyasının akademiki, Beynəlxalq Pedoqoji Təhsil Akademiyasının akademiki; Rusiya Federasiyasının Yazıçılar İttifaqının üzvü və neçə - neçə kütləvi elmi birliklərin üzvü - onlarca məqalə, monoqrafiyalar və kitablar müəllifi.

2002 – ci ildən Effektiv Təhsil Fondunun Prezidenti vəzifəsində çalışan Yaqut – sadəcə olaraq öz ixtisası çərçivəsinə sığan alim deyildi.

O böyük alim, mütəffəkir, filosof şair idi və əvəzsiz ailə başçısı idi.

Onun qələbə və nailiyyətləri saysız hesabsızdır (elm və siyasət sahəsində), ancaq Yaqutun ən böyük və uğurlu nailiyyəti onun övladlarıdır – Azad və Aidə. Onlar Yaqutdan bizlərə, Yaqut sevərlərə qalan canlı yadigarlardı və onlar bizim üçün çox əzizdilər.

Yaqutun öz dilimizə, dinimizə, vətənimizə olan sonsuz məhəbbəti tükənməz idi. Bu hisslər Yaqutun irili – xırdalı bütün əsərlərinin ana xəttini təşkil edir.

Sonsuz vətən sevgisi ilə yaşayan Yaqutun ürəyində Qarabağ adlı böyük bir dərd olduğunu onun Moskvada Millətlər evində Qarabağ ətrafındakı vəziyyətə həsr olunmuş dəyirmi stol yığıncağındakı çıxışında çox aydın görmək olar.

"Əgər məndən soruşsalar ki, mənim üçün "Qarabağ" sözü nə deməkdir, mən fikirləşmədən cavab verərdim:

Qarabağ – bu gün təkcə mənim yox, istənilən azərinin (onun yaşadığı yerdən, çalışdığı vəzifədən və sosial vəziyyətindən aslı olmayaraq) qabırğasının altına közərdilərək batırılmış bizdir.

Qarabağ – hər bir azərinin, hər bir azəri ailəsinin, bütün Azərbaycan millətinin faciəsidir."

Sən demə yuxarıda sadalanan dərdlər Yaqutun həyat vergülünə nöqtə hazırlayıbmış – özü yazdığı kimi:

Ağır bir dərdim var, yandırır məni
Heç kimə danışa bilmirəm Ana!

"Anam Azərbaycana açıq etiraf" şerinin başlanğıcında bir dərdim var deyir – fəqət şerin sonuna qədər onlarca sual dolu dərd sadalanır hamısı cavabsız

Yaqutun bu fani dünyanı tərk etdiyi kimi – cavabsız?!

Mən bu dözülməz xəbəri eşidəndən bu günə qədər aşağıdakı fikirlə yaşayıram:

Bu qədər kədəri – qəmi saxlamaq,
Sənin yoxluğuna qara bağlamaq
Ölümdən betərdi səni ağlamaq
Ağlaya bilmərəm kaş mən öləydim!

MAYAK NEYMƏTOV

X A T İ R Ə L Ə R

Mərhum Yaqut Neymətovla ilk görüşümüzdən təqribən 60 aydan və yaxud da 5 ildən yuxarı bir müddət ötmüşdür. Fəqət, onunla ilk görüşümüzdə olan söhbətlər və məqamlar yaddaşımdan indiyədək silinməmişdir. Həyat ən müdrik müəllimdir. İllərlə münasibətdə olduğun adamlar arasında elələri olur ki, onunla əlaqə qırılan təki, haqqında olan xatirələr də onunla birlikdə yaddaşdan və hafizədən tezliklə silinib gedir. Yaqut Neymətov varlığı mill düşüncələrlə elə işıqlı, elə məntiqli və elə məhəbbətlə dolu bir şəxsiyyət idi ki, onu yaddaş və xatirədən qaçırmaq mümkün olan iş deyildir:

Bir bulud göylərdə qaraldı, doldu,
Bir şimşək səmada alışdı, keçdi.
Ürfan bağçasında bir çiçək soldu,
Bir alim dünyadan hayıf ki, köçdü.

Elə bil günəşsiz qaldı üfüqlər,
Elə bil cahanın gözü daraldı.
Şadlıqdan, sevincdən qalmadı əsər,
Elə bil yer üzün tamam qar aldı.

Həzin hüzn tutdu bir anda aləm,
Qara çadra çəkdi üzünə Ay da.
Min-min ürəkləri aldı kədər, qəm,
12 İyunda – o isti ayda.

O gün bir ney idi, ələm simiydi,
Tarzani fələkdi – susan ürəkdi.
Yaqutla bu cahan cənnət kimiydi,
YAQUTSUZ bu cahan nəyə gərəkdi?

Yaqut müəllim hər şeydən öncə, təbiətən şair bir insan idi. Onun "Könül naləsi" kitabında dərc olunmuş şeirlərini ilk dəfə mütaliə edəndə dərk etdim ki, Yaqutun daxili dünyası mənən yaqutdan hörülmüş üç təməl daşından ibarətdir: - Ana dilinin müqəddəsliyinə bağlılıq, milli – mənəvi dəyərlərə böyük ehtiram və bir də yüksək vətənpərvərlik! Bu üç amilin vəhdətindən günəşə boylanan şeirlərinin mayası isə Vətən eşqi, İnsana məhəbbət, Elm və Dinə hörmət, İlahi sevgi, əbədi harayı isə - doğma vətəni Azərbaycanın ərazi bütövlüyü, qədim türk dünyasının yenilməz əzəmətidir. Ömrünün mənası hesab etdiyi vətəni haqqında qələmə aldığı bir bənd şeiri onun həyat idealı idi:

Amansız aylarda, ağır illərdə,
Könlümün həmdəmi yalnız vətəndir!
Nə qədər yaşasam qürbət ellərdə,
Ömrümün hər dəmi yalnız vətəndir!

Yaqut Neymətov eyni zamanda nəinki Rusiya məkanında, mən deyərdim ki, bütün Avropa məkanında ən qüdrətli alimlərdən biri idi. O, özündən sonra dünya təhsil sistemi üçün elə bir nəzəriyyə qoyub getmişdir ki, mübaliğəsiz demək olar ki, onunla yalnız fəxr etmək olar. Həmin nəzəriyyə adi insanlar üçün deyil, təhsil nəzəriyyə sistemi ilə məşğul olan məhz alimlər, pedaqoqlar, siyasətçilər və dövləti idarəetmə sistemlərində çalışan mütəxəsislər üçün yazılmışdır. Təsəvvürə gətirmək o qədər də çətin deyil ki, həmin qlobal nəzəriyyənin öhtəsindən gəlmək üçün nə qədər fiziki zəhmət və nə qədər dünya məxəzlərini və ədəbiyyatlarını araşdırmaq gərəkdir. Bəli, 21 ci əsrin qarşıya gətirdiyi həmin nəzəriyyənin ilk nəzəriyyəçisi və ilk daşıyıcısı məhz Böyük Azərbaycan alimi Yaqut Neymətov oldu.

O, "Образование в 21 веке» monoqrafiyasında yazır ki. «Культура начинается там, где возникает правило». Həmin fikri böyük fransız etnoloqu və antropoloqu Levi – Stross da əvvəllər müdafiə etmişdir.

Bizim Yaqut müəllimlə tanışlığımız üçün Moskva şəhərində fəaliyyət göstərən "Şəhriyar" ədəbi – mədəni cəmiyyətinin sədri Vasif müəllimə bu gün də minnətdarlığımı bildirirəm.

Yaqut Neymətov təkcə şair və alim deyildi. O, eyni zamanda lətifələri, zarafatı. çay süfrəsini – xüsusilə də samovar çayını xoşlayan, söhbətcil bir insan idi. O, bizi həmişə samovar çayına dəvət edərdi və çay süfrəsi arxasında ədəbi mühitdən, dilimizin zənginliyindən, tarixi keçmişimizdən, Türk dünyasının gələcək taleyindən, qlobal dünyamızın indiki mənzərəsindən söhbətlər edərdik. Onun güclü yaddaşı, söhbətdaşına səbrlə qulaq asması və məntiqli mühakimələri məndə heyrət doğururdu. Yaqut müəllim həm də dostluqda dəyanətli, sözündə möhkəm, xislətində əqidəli, həyatı fəaliyyətində son dərəcə ədalətli bir insan idi. Sözün əsl mənasında Yaqut Neymətov əsl bəşəriyyət övladı və bəşəriyyət üçün doğulmuş əsl şəxsiyyət idi. O, bəşəri ideyalarla yaşayan Böyük bir alim, bəşəriyyət üçün isə unudulmaz bir insan idi. Allah ona rəhmət eləsin! Amin!

ƏŞRƏF HÜSEYNLİ,
Tarix elmləri doktoru,
Beynəlxalq Yazıçılar və Publisistər Birliyinin,
"Şəhriyar" ədəbi mədəni cəmiyyətinin üzvü

ALIM YAQUT – ŞAIR YAQUT

Moskva ədəbi və içtimai mühitində Böyük alim, şair, publisist, pedaqoji elmlər doktoru , professor kimi tanınmış Yaqut Neymətovun şəxsiyyəti, həyat yolu, yaradıcılığı haqqında fikir söləmək mənim üçün həm asandır, həm də çətin. Asandır ona görə ki, mən onunla 18 il dostluq münasibətində olmuş və həmin müddət ərzində onun bütün xüsusiyyələrinə özümdən də yaxşı bələd idim. Çətinlik orasındadır ki, mən onun həyatda yoxluğunu hələ də təsəvvürümə sığışdıra bilmir və onsuz ötən zamanla da belə heç cür barışa bilmirəm.

Yaqut müəllim ailəsinə, vətəninə, elinə- obasına, Azərbaycan milli ruhuna, türçülük ruhuna qəlbən bağlı insan idi. Ona görə də o mənsub olduğu Azərbaycan xalqının dilini, adət-ənənələrini, mədəyiyyətini, tarixini, milli mənəvi dəyərlərini yüksək qiymətləndirir və ləyaqətlə təbliğ edirdi. O, Azərbaycanda doğulub böyüməsə də tarixi vətənimiz kimi, Azərbaycanı ürəkdən sevər, uğurları ilə öyünərək həmişə qürur hissi keçirərdi. Xalqımızın dahi şəxsiyyətləri - elm və ürfan sahibləri haqında iftixar hissi ilə danışar, yeri gəldikcə onların haqqında zəngin material toplayıb, Rusiya içtimaiyyətinə çatdırmaq məqsədi ilə rus dilində maraqlı orjinal yazılar çap etdirərdi. Onun "Azərbaycan" şeri, tarixi vətəni olan Azərbaycana bağlılığından doğan hissilərin təzahüründən yaranan poeziya nümunəsidir:

Sənsiz mənim bəxtim olmaz,
Sinəm şeir, sözlə dolmaz,
Sən varsansa gülüm solmaz,
Canım, gözüm Azərbaycan!

Ayım sənsən, günəşim sən,
Eşqim sənsən, atəşim sən,
Sən bir şamsan, pərvanən mən,
Odum, közüm, Azərbaycan!

Əhdi-peyman var sözümdə,
Göz yaşlarım dənizində,
Qoy adımla yer üzündə,
Qalsın izim, Azərbaycan!

Yaqut müəllim qeyri adi bir şəxsiyyət idi. O, bütün həyatı boyu obyektiv gerçəkliyi, onu əhatə edən hikmətlə dolu ətraf aləmi dərindən dərk edər, kainatın sxematikası və quruluşunda olan təkrarsız qanunauyğunluqlara heyran qalar və hadisələri praktik bir sosioloq kimi araşdırıb ona düzgün qiymət verərdi. Yeri gəlmişkən bir məsələni də xatırlamaya bilmirəm. O Azərbaycan xalqının indiki vəziyyəti haqqında sosialoji araşdırma aparmışdı, həmin məsələni elmi əsaslarla mənə izah etməyə çalışırdı və çoxlu dəlil və sübutlar ortaya qoyurdu. Həmin məsələyə uyğun bir el misalı söylədim. Yaqut müəllim əvvəl ciddi görkəm aldı, sonra gülümsəyərək mənə dedi ki, mənim bayaqdan bəri söylədiklərimi sən bir el misalı ilə təsdiq etdin. Xalqın böyüklüyü, qədim və ulu keçmişə malik olması belə misallardan görünür - dedi. Bu, mənim onunla ikinci görüşüm idi. Həmin görüşdən sonra Yaqut müəllimin ağıllı mühakimələri, sadə, səmimi davranışları, vətənpərvərliyi, güclü intelektə malik bir şəxsiyyət olması mənim qəlbimdə həmişəlik kök saldı. O gündən aramızda yaranan ilahi bir bağlılıq bizim həmişəlik dosluğumuza çevrildi. Yaqut müəllimlə hər həftə görüşər, bu görüşlər zamanı saatlarla müxtəlif məzmunda diskussiyalar aparar, qədim tariximiz, zəngin poeziyamız, əsrlərdən bəri süzülə-süzülə bu günümüzə gəlib

çatmış muğamlarimiz, aşıq sənətimiz(O xüsusən ulu ozan sənətimiz olan, Dədə Qorqud yadigarı aşıq sənətini çox sevər, həddən çox dəyərləndirərdi. Saz türkün kodudur deyərdi) haqqında çoxlu söhbətlər edərdik. O, dərin ensiklopedik biliyə, aydın, rəvan nitqə malik idi. Rus və Azərbaycan dillərini mükəmməl bildiyi üçün hər iki dildə həmişə məntiqli danışar, güclü mühakimələr söylərdi. Allahın varlığına inanar, Qurani Kərimi müqəddəs hesab edərdi. Dinsiz insanın milləti və vətəni olmaz - deyərdi. Yaqut müəllim pedaqogika sahəsində Rusiya məkanında nəzəriyyəçi alim kimi özünü təsdiqləmiş, həmin sahədə islahatlar keçirilməsi barədə elmi araşdırmalar apararaq, fundamental əsərlər çap etdirmişdir. "21 ci əsrdə təhsil sistemi" adlı monoqrafiyasını buna misal göstərmək kifayər edər.Yaqut müəllimin şairliyi, poetik düşüncələri, elmi axtarışları ilə paralel addımlayırdı. O, Moskva şəhərində fəaliyyət göstərən "Şəhriyar" ədəbi- mədəni cəmiyyətinin üzvü olduğu üçün, vəfatından sonra şeirləri cəmiyyətin üzvüləri ilə birlikdə Məmməhüseyn Şəhriyarın şərəfinə buraxlmış almanaxda,(2015-ci il) Pusiyanın buraxdığı poeziya almanaxında(2016-cı il) və Türkiyədə "Unutulmayan Hocalım" başlığı altında buraxılmış dərgidə(2016-cı il) çap olunmuşdur.

Yaqut Neymətov əsl vətənpərvər bir insan idi. Erməni tapdağında uzun müddət qalan Qarabağ torpağlarının nisgilli taleyi onu bir an belə rahat buraxmırdı. Qarabağı azərbaycanın qan damarı hesab edən alim Yaqut, onun kədərinə biganə qala bimədiyindən, xamırı vətənpərvərliklə yoğrulan şeirlərində qəlbini bir qələm sahibi kimi ovuda bilirdi.

Vətən həsrətli şairin, doğma vətəninə sonsuz sevgi ilə yazdığı aşağıdakı şeiri onun niskilinin bariz nümunəsidir:

Üzü gündüzədir ötən hər anın,
Rəngi qızıl olar açılan danın,
Mənə elə gəlir, bütün dünyanın,
Gövhəri, daş-qaşı, ləli vətəndir!

Hər ulduz taledir səmadan köçən,
Hər məqam zərgərdir, zər tutan, seçən,
Yaqut, ömürlərin cənnətdən keçən,
Ən gözəl cığırı, yolu vətəndir!

Yaqut müəllim elmdə, poeziyada yenilik axtaran, həmişə müasirliyə üstünlük verən bir alim, duyğusal bir şair və sənətkarlığı şəxsiyyəti ilə vəhdətdə olan yetkin bir şəxsiyyət idi.

Xalqımızın ləyaqətli oğlu, böyük alim, filosof, araşdırıcı sosioloq, şair, publisist Yaqut Neymətovun işıqlı siması, həyata yadigar qoyub getdiyi poeziya nümunələri, zəngin əsərləri, şirin söhbətləri mənim və o cümlədən onun təmsil olduğu "Səhriyar" ədəbi- mədəni cəmiyyətinin bütün üzvülərinin qəlbində daim yaşayacaq və heç zaman unudulmayacaqdır. Allah Yaquta rəhmət eləsin!

VASİF MƏMMƏDOV,
"Şəhriyar" ədəbi mədəni cəmiyyətinin sədri, publisist

AĞLATDIN ƏZIZ DOST, AĞLATDIN BIZI

Uzun illər vətəndən uzaqlarda, qəriblikdə yaşadığıma görə, hər bir vətən övladını görəndə, sevincimin həddi - hüdudu olmazdı. Xüsusilə də qəlbimə və ruhuma yaxın olan insanla təmasda olanda özümü göylərin yeddi qatında hiss edərdim. Çünki, Vətən həsrəti mənim hisslərimi, arzu və istəklərimi çox imtahanlara çəkmişdi. Dünyaya göz açıb, üstündə boya-başa çatdığım doğma Kəlbəcəri itirdikdən sonra, qəriblikdə daha da kövrəkləşərək nisgilli bir dünyanın məngənəsi arasında sıxılmış və sanki tərki dünya olmuş və kimsəsiz olmuşdum. Elə buna görə də hər bir azərbaycanlı ilə görüşlərim və tanışlığım mənim vətənə həsrət təşnəli qəlbimdə riqqət yaradır və sanki həsrət hisslərimi bir qədər soyudurdu.

Hər kəsə məlumdur ki, 20-ci əsrin axırlarında SSRİ dövləti dağıldı, iş yerləri axtarmaq və bir tikə çörək qazanmaq üçün bütün millətlərdən olan insanlar böyük Rusiya bazarına axışmağa başladılar. Məhz bazar iqtisadiyyatının çətinlikləri azərbaycanlıları da Rusiya bazarına üz tutmağa sövq etdi. Odur ki, Russiyada yaşayan başqa millətlərin nümayəndələri kimi, azərbaycanlılar da öz milli diaspor təşkilatlarını yaratmağa başladılar. Diaspor təşkilatı içərisində yaxından tanınan , yetkin yaradıcılıq qabiliyyətinə malik olan, fəlsəfə elmiləri doktoru, professor, Rusiya elmilər Akademiyasının fəlsəfə institutunun baş elmi işçisi Rafiq Qurbanov (Azərbaycanın xalq şairi Osman Sarıvəllinin oğlu) tərəfindən yaradılan Şəhriyar ədəbi - mədəni cəmiyyətinin ətrafında çoxlu sayda yaradıcı insanlar bir araya gəlməyə başladılar. Təbiətimdə şeirə, poeziyaya yüksək həvəs olduğuna görə, mən də böyük ruh yüksəkliyi ilə həmin cəmiyyətin keçirdiyi tədbirlərdə yaxından iştirak etməyə başladım. Cəmiyyət həyatında yaxından iştirakım mənə yeni-yeni insanlarla tanış olmaq imkanı yaratdı. O insanlardan biri də görkəmli alim, şair və pedaqogika elmiləri doktoru, professor Yaqut Məmməd oğlu Neymətov oldu. Yaqut Neymətovla elə ilk

tanışlığımızdan, onun gözəl alim, dərin zəkaya malik bir insan olduğunu hiss etdim. Tədricən onun bütün əsərləri ilə tanış olmağa və həmin əsərləri mütaliə etməyə başladım. Bu tanışlıqdan bizim gələcək dərin səmimiyyətimizin təməli qoyuldu. Onun elm sahəsində olan nailiyyətləri və poeziya aləminə olan sönməz məhəbbəti ona az zaman kəsiyində soydaşları arasında şöhrət qazandırdı. Aramızda olan dərin səmimiyyət getdikcə möhkəm dostluğa və qardaşlığa çevrildi. Onun 2013 ilin may ayında, Moskva şəhərindəki Millətlər Evində keçirilən Dədə Şəmşirin 120 illik yubileyi zamanı alovlu çıxışı və Dədə Şəmşirə həsr etdiyi şeiri məclisə xüsusi bir ahəng verdi.

Sonra həmin şeirdən ruhlanaraq mən Yaquta belə bir şeyrlə cavab yazdım:

AY DƏDƏ YAQUT

Pedaqogika elmləri doktoru, professor,
şair- publisist Yaqut Neymətova ithaf edirəm

Bu dünya sehirli, bağçalı dünya,
Boranlı, tufanlı, ay dədə Yaqut!
Dağları zirvəli, qayalı daşlı,
Çisginli, dumanlı, ay dədə Yaqut!

Zamanın hökmündə fitrətə bir bax,
Bu gün taxta çıxıb dünənki alçaq,
Dəryalar beləmi, de çalxanacaq,
Nə qədər gümanlı, ay dədə Yaqut!

Qəlbimdə dikəlir Nuhdan qalan söz,
"Yaman gün gələndə səbr elə, dur döz",
Köksümün başında qalanıbsa köz,
Dözüm ah-amanlı, ay dədə Yaqut!

Ovçunun əlindən payı çıxıbdı,
Kamanı qırılıb, yayı çıxıbdı,
İndi bu dünyanın zayı çıxıbdı,
Palçıqlı, samanlı, ay dədə Yaqut!

Mir Abbas kədərlə barışıb bu gün,
Qürbətdə bəxtilə yarışıb bu gün,
İnsanlar çay kimi qarışıb bu gün,
Yaxşılı-yamanlı, ay dədə Yaqut!

05.06.2013, Moskva

(Yaqut Neymətovun qəfildən vaxtsız dünyadan getməsi, onun bütün yaxın dostları kimi,məni də çox dərindən kədərləndirdi. Mən onun qəfil ölüm xəbərini eşidəndə xeyli müddət özümə gələ bilmədim və həmin kədərli hisslərdən təsirlənərək aşağıdakı şeiri yazdım:)

AĞLATDIN ƏZIZ DOST, AĞLATDIN BIZI

Əziz və mehriban dostum, pedaqogika elmiləri doktoru, şair- publisist Yaqut Neymətovun vaxtsız bu dünyadan köçməsi məni dəhşətli dərəcədə silkələyərək, çox dərindən düşünməyə vadar etdi!!!

Yaman dərd gəlibdir dərdimiz üstə,
Ağlatdın əziz dosd ağlatdın bizi!
Yayıldı hər yana bu müsübətin,
Ağlatdın əziz dosd ağlatdın bizi!

Kədərli gözündə bir nalə gördüm,
O nurlu üzündə bir lalə gördüm,
Dərin sözlərində çox məna gördüm,
Ağlatdın əziz dosd ağlatdın bizi!

Sən yoxsan ruhundu gəzib dolaşan,
Ətrafımız dolu çoxdur yol çaşan,
Səndən başqa yoxdur bizi soruşan,
Ağlatdın əziz dosd ağlatdın bizi!

Bu dünya yaranan günündən demə,
Batıb günahlara baş vurub dəmə,
Zülm edib bizlərə batmayıb qəmə,
Ağlatdın əziz dosd ağlatdın bizi!

Elin dərdi idi səni yandıran,
Bizə uşaq kimi mətləb andıran,
Bəzi nadanları məcbur qandıran,
Ağlatdın əziz dosd ağlatdın bizi!

Sən ki, bülbül idin gül həvəsində,
Qalmışdın zülmətin öz qəfəsində,
Elə dolanırdın qəm zirvəsində,
Ağlatdın əziz dosd ağlatdın bizi!

Mir Abbasın qəlbi kövrəkdir yaman,
Tanrıdan istəyir bir dayaq inan,
Sən yoxsan qəlbimiz olubdu talan,
Ağlatdın əziz dosd ağlatdın bizi!

25 iyun 2013, Moskva şəhəri

Vətənpərvər, xalqını sevən və alicənab insan olan Yaqut Nemətova mən Allahdan rəhmət diləyirəm! Yeri behişt olsun. Əziz dost! Sənin xatirən bizim qəlbimizdə hər zaman yaşayacaq. Allahdan Sənin ailənə və övladlarına can sağlığı arzulayıram!

MIR ABBAS AQDABANLI,
Şair, filosof, Beynəlxalq Yazıçılar və Publisistlər
Birliyinin üzvü və "Şəhriyar" ədəbi – mədəni cəmiyyətinin təsisçilərindən biri

LİRİKA VƏ FİZİKA

Görkəmli alim, pedaqoji elmlər doktoru, professor Yaqut Neymətovun xatirəsinə

Dünya inellektulaları öz elitasaını iki qismə bölür: Liriklər və Fiziklərə. Həyatın dialektik mübarizəsini də mübağlıə edərək bu iki düşüncə tərzi arasında yanaşı gedən prosesləri antoqonist kimi qələmə verir və mübahisə mövzusuna çeviriblər. Çünki adətən Liriklər heç zaman fizika hüdudalarına, Fiziklər də Lirika hüdudlarına ayaq basmazlar. Humanitarlar və texnarlar arasında sanki Çin səddi çəkilmiş olur, üstündən də yüksək gərginlikli tikanlı məftillər buraxılıb...

Çox az istisnalarla əlbəttə.

Moskvada Diaspora hərakatımızın tanınmış nümayəndələrindən biri olan görkəmli alim, pedaqoq, şair, filosof və gerçəkdən zahirən və daxilən gözəl insan Yaqut Neymətov belə bir istisnalardan biri idi. İkiqat qürbət hissini yaşayan bu insan, yəni ana vətəndən ayrı düşmüş ulu Borçalı torpağında göz açıb, Gürcsatan vətəndaşı Moskvaya gəlib qürbətdə soydaşları ilə ünsiyyətdə olmaq onun həyatında və yaradıcılığında dərin izlər buraxmışdı. Ünlü və ciddi bir təhsil mərkəzi olan Lomonosov adına Moskva Dövlət Universitetinin fizika fakültəsini bitirmək gerçəkdən fundamental bir təhsil almaqdır.

Pedaqoji sahədə doktorluq dərəcəsi alması, Rrusiyanın Prezident Aparatı yanında İdarəçilik Akadmiyasında professor kimi çalışması onun ciddi elmi səviyyəsindən və nüfuzundan xəbər

verirdi. Fiziklər düşüncə və davranış tərzinə görə ümumiyyətlə çox təvzökar olurlar. Dahi fizkişünas İsaak Nyütonun belə bir söyləməsi var ki: "Mən bir az uzaqları görə bildimsə, nəhənglərin çiyndən boylanmağımdandır".

Yaqut Nemətov da veə bir təvazökar insan idi. Onun pedaqoyi sistemdə innovasion araşdırmaları, qloballaşma haqqında tədqiqatları və tamamilə başq bair sahə - klassik şairlərimiz haqqında maraqlı araşdırmalıı vardı. Belə geniş maraq dairəsi onun özünün də şeir-sənətə olan marağından, yaradıcı insan olmasından irəli gəlirid. O, haqlı olaraq millətimizi və xalqımızı dünyada tanıdan dahi Nizami Gəncəvinin əsrlərin sınağından çıxan yaradıclığı haqqında belə fikirlərə gəlir: "Şairin həyat və yaradıcığı haqqında məlumat çox azdır. Onun yaşaadığı dövrdən sonra səkkiz əsr keçib, çoxsaylı müharibələr, dağıntılar nəticəsində Azərbaycan xalqının saysız-hesabsız miqdarda maddi və mədəni inciləri məhv olub. Şairin vəfatından cəmi bir neçə il sonra monqolların qasırğalı hücumu bütün Yaxın və Orta Şərqin çiçəklənən şəhərlərini viran qoydu,vəhşi işğalçılar əsrələrlə müxtəlif xalqların birgə yaratdığı Böyük Məfəniyyəti odun və qılıncın öhdsinə verdilər. Əcdadlarımızın müdrik həyat təcrübələrini, fikirlərini, dünyagörüşlərini, böyük şəxsiyyətlərin tərcümeyi-hallarını özündə qoruyub saxlayan yüz minlərlə qiymətsiz əlyazmalarını məhv etdilər."

Bəziləri araşdırıcılar qloballaşmanı XX əsrin sonu, XXI əsrin əvvəlləri üçün dünyada yaranan ictimati-iqtisadi-siyasi təmayül kimi başa düşürlər. Doğrudur, bu dünya imperializminin, onun transmilli şirkətlərinin güclənməi ilə əlaqədar olaraq qloballaşmanın ən sürətli və güclü təsir etdiyi bir zamandır. Ancaq elə ən qədim dövrlərdən yaranan imperiyalar, müxtəlif xalqları, mədəniyyətləri zor gücünə birləşdirən qüvvələr buna təkan vermişlər. Qədim Roma imperiyası, Hun imperataorluğu, Osmanlı, Rus və Qafqazdan Əfqanıstana, Hindistana qədər yayılan Nadir şahın yaratdığı Azərbaycan türk imperatorluğu buna parlaq misallardır.

Qloballaşma haqında geniş tədqiqat aparan alim Yaqut Nemətov bu haqda maraqlı nəticələrə gəlir. O bunları qloballaşmanın paradoksları adlandırır.

"Müasir dövrdə qloballaşma prosesi iki istiqamətdə axır. Birinci yol – dünyanın müxtəlif ölkələri arasında olan əlaqələr (siyasi, iqtisadı, elmi və mədəni) sürətlə inkişaf edən informasiya texnlogiyaları sayəsində günü-gündən genişlənir, heş bir xarii təsirə məruz qalmadan mübadilə xarakteri daşıyır və nəticə etibarı ilə müsbət məna kəsb edir. Ona görə də bu istiqamətdə axan qloballaşma prosesi təbiidir. İkinci yol – bütün dünyaya meydan oxuyan "qızıl milyard" dövlətlərinin höcəti və zorakıığı ilə törədilən əməliyyatlar, başqa dövlətləri qorxutmaq və hədələməklə qarşıya qoyduqları istehlak xarakterli məqsədlərini "demokratiya prinsipləri" şüarı altında həyata keçirməyə vadar etməkdir. Şübhəsiz bu yol bəşəriyyəti sürətlə uçuruma aparır və qloballaşmanın təbii yolunu darmadağın edir. Ona görə də qloballaşma deyəndə yalnız ikinci yol nəzərdə tutulur."

Çoxtərəfli yaradıcılığa malik olan Yaqut Neymətov həm də incə ruhlu bir şair idi. Bu ruh ona çox şübhəsiz ki güclü aşıq ənənəsinə və mədəniyyətinə malik olan sazlı-sözlü Ulu Borçalı torpağından canına-qanına hopmuşdu. Onun şeir yaradıcılığında aşıq ruhu, müdrik Nizami ruhu, böyük Sabirn sərt satira ruhu və ciddi elmi məntiqli fizikşünas düşüncəsi qəribə bir sarmaşıq kimi bir-birinə sarınmışdı. Bu səbəbdən də onun Nizamiyə bə Sabirə həsr etdiyi şeirləri, elmi mühakiməyə və nəsrə sığmayan poetik ürək sözləri vardı...

SABİRƏ XİTAB

Dözməyib cəhalətə daimi üsyan elədin,
Çağırdın hüriyyətə cəmi qafqaz ümmətini,
Qəflətdə yatanların dərdinə dərman elədin.
Ayinəyə baxıb incidi övladi-vətən,
O abad könülləri necə də viran elədin!
Vurduğun hər bir hədəf tutdu səni daş-kəsəyə,
Sığılıb aləminə qəlbini pünhan elədin.
Güləndə sən ağlardın, ağlayanda Sən gülərdin,
Ruhunun vüsətinə canını qurban elədin.
Çoxları anlamadı söylədiyin kəlmələri,
Gələcək nəsillərə irsini ünvan elədin.
Ötüşdü neçə illər, qərinələr təzələndi,
Yatanlar oyanmadı, Neyməti peşman elədin!

Zənnimcə bu günlərdə bir daha xatirəsini yad elədiyimiz Yaqut Neymətov özü də bir alim və tədqiqatçı kimi, şair kimi, insan kimi söylədiyi hikmətli sözlər elə onun özünə də tam aiddir: "Gələcək nəsillərə irsini ünvan elədin." Sənətkarın və alimin zamanı olmur, onlar zamanlar fövqündə durur. Həmişə cavan, həmişə müdrük və həmişə səmimi bir dost kimi xitab edib məsləhət ala bilərsən, dərdlərini və fikirlərini bölüşə bilərsən.

Qoy onun işıqlı ruhu həmişə şad olsun, onun nurlu irsi mayak kimi gələcək nəsillərin doğru yola yönəlməsində vasitəçi olsun! Adında və soy adında sirli bir məna olan gözəl insan onu tanıyan dost-tanışların, qohum və əzizlərinin xatirə üzüyündə həmişə bir Yaqut kimi parlaq və Allahın bəxş etdiyi qiymətli Neymət - şəxsiyyət kimi qalacaq.

Böyük şəxsiyyətlər, yaradıcı insanlar adi insanlardan həmişə fərqlənir. Onalrın göründüyündən fərqli bir iç dünyası, onları Tanrıya daha yaxın edən yaradıcılıq dünyası olur. Sabirin, Yaqutun diqqət çəkdikləri aynaarxası sirli bir aləmvar ki, onlar da o aləmin sakinləridir. Bu haqda bir şeiri xatırlamaq zənnimcə yerinə düşərdi.

İKİ ÜZ, İKİ ÖMÜR

Neyləyim a dostlar,
iki üzüm var,
Bir üzüm güləndə biri ağlayır.
Mən olan dünyada iki hüzn var,
Biri: "çıx get!"- deyir, biri saxlayır.

Ikiyə bölünüb elə qəlbim də,
Sabaha açılan yollarım iki.
İki simə bənzər - zil ilə bəmdə
Bir sevgi gözləyən qollarım iki.

Bu dünya önümdə güzgüyə bənzər,
Sanki yurdum-yuvam, vətənim iki.
Dayanıb durubdur üzümə qənşər
Mənim ruhum iki, ürəyim iki!

Iki ömürlüyəm torpağa, daşa,
Qəlbimdə həsrətlə ümid qışlayar.
Bir ömrüm
ölümlə yetişər başa,
Biri ölümümdən sonra başlayar…

SULTAN MƏRZİLİ

ЯГУТ МАМЕДОВИЧ НЕЙМАТОВ - УЧЕНЫЙ, ФИЛОСОФ И ПЕДАГОГ

ПАМЯТИ ДОРОГОГО МОЕМУ СЕРДЦУ ЧЕЛОВЕКА ПОСВЯЩАЕТСЯ

Самой судьбой была уготовлена наша встреча, знакомство, в дальнейшем перешедшая в крепкую мужскую дружбу.

Это произошло в те далекие 90-е годы, когда мы оба были еще молодыми докторантами в Российской академии государственной службы; каждый из нас специализировался в разных областях науки.

При первой же встрече на меня, да и на многих наших коллег, произвело впечатление неимоверная страсть Ягута Мамедовича к познанию, первенству, победе. Нас поражала его феноменальная память, умение логически выстраивать суть той или иной научной проблемы, убедительно доказывать пути ее разрешения. Высокая к себе требовательность, огромная работоспособность в сочетании с большими талантами аналитика и ученого, видением хода исторических процессов, происходящих в современном мире в кратчайшее время выдвинули Ягута Мамедовича Нейматова в лидеры среди нас–однокурсников.

Самобытность взглядов и мироощущений, основанных на глубоких познаниях истории, философии, культуры, педагогики находили свое отражение в его научных монографиях, статьях, программных докладах, сделанных профессором Нейматовым Я.М. на разных симпозиумах и конференциях.

Нередко, я заслушивался его стихами, произнесенными им под звуки саза, поражаясь богатству и высокой культуре речи, огромной палитре познаний азербайджанской и мировой поэзии.

И сейчас, по прошествии времени, воочию понимаю и вижу величие и масштабность Человека - моего друга, брата - ученого, мыслителя, педагога, любящего отца и мужа, преданного всем сердцем идеалам своего народа – профессора Ягута Мамедовича Нейматова.

ПАША КУЛИЕВ,
профессор

QARAYAZIM – QARA YAZIM

Qarayazıda doğulub boya-başa çatmış, Moskvanın elm dairələrində Azərbaycanın və Gürcüstanın adlarını şərəfləndirən görkəmli alim və şair dostum Yaqut Neymətova həsr edirəm.

Qarayazı (Gürcüstanın indiki Qardabani şəhəri və rayonu) əsrlər boyunca Azərbaycanlıların yaşayış mərkəzidir, hazırda yenə də əsas əhalisi Azərbaycan türkləridir.

1947-ci ildə şəhərin yaxınlığında aşkar edilmiş Qardabani qalasının (azərbaycanca Qaratəpə) guya şərəfinə adı dəyişdirilmişdir. Doğma yurdunun, o cümlədən rəsmən adı müasir xəritədən silinmiş Borçalı diyarının digər toponimlərinin adlarının əsassız və insafsızcasına dəyişdirilməsini Yaqut müəllim haqlı oiaraq faciə kimi qəbul edir. Bu şeir də onun mənə təlqin etdiyi duyğularin təpkisindən doğulmuşdur.

Təcnis

Gedib əldən neçə yurdum,
Qoy adların qara yazım.
Köhnə yaram – Borçalım var,
Hanı mənim Qarayazım?

Gəlbim dərdin məndən dara,
Vətən deyək gedək dara!
Namərd saldı bizi dara,
Yaza varmır qara yazım.

Peyda oldu dev - heyvərə,
Yağı saldı o hey vərə!
Tamahından yox hey vərə,
Heç tükənmir qar,ayazım!

Ömür gedir o üzünə,
Necə baxım o üzünə?!
Bu üzünə, o üzünə,
Yazan yazıb qara yazım!

Əliş, neçə dövran keçdi –
Fələk yenə taxta keçdi.
Yaradandan qəzəb keçdi,
Ot bitirmir qara yazım!

ƏLIŞ ƏVƏZ,
Rusiya və Azərbaycan yazıçılar və jurnalistlər birliklərinin üzvü

DÜNYA SƏNDƏN KİMLƏR KÖÇDÜ

Yaşasaydı 60 illik yubleyini qeyd edəcəkdi

Ömrünün 60-cı ilinə təxminən 8 ay qalmış, amansız ölüm qəflətən gəldi və ürəyi yazıb – yaratmaq , yaşamaq eşqi ilə vuran Yaqut Neymətovu aramızdan apardı. Hələ qarşıda nə qədər arzuları vardı bu insanın. Lakin sən saydığını say, gör fələk nə sayır, deyiblər.

Qardabanidə müəllim ailəsində anadan olmuşdu Yaqut. Kiçik yaşlarından zəhməti özünə yol yoldaşı seçib və buda onu orta məktəbi bitirdikdən sonra Bakıya, oradan isə Moskvaya aparıb çıxarıb.Təhsil aldığı bütün ali məktəblərdə fərqlənib, öndə olub. Məhz bu keyfiyyətlər Yaqutu inanılmaz bir zirvəyə aparıb çıxarıb. O, Pedaqoqika elmləri doktoru, professor, Rusiya təbiyyət elmləri Akademiyasının akademiki, Beynəlxalq Pedaqoji təhsil akademiyasının akademiki zirvəsinə yüksəlmişdir.

Artıq özü kimi zəhmətsevər gənclərimizə yol göstərirdi, ucalmağa çağırırdı, halallıqla qazanılmış uğurun insana baş ucalığı gətirməsi kimi insani keyfiyyətlər arzulayırdı...

Belə bir zamanda ürəyi Yaquta müxənnətlik etdi, dostlar arasında, gözəl bir məclisdə dayandı, Yaqutu əbədiyyət yuxusuna, onu istəyənləri isə tükənməz göz yaşlarına qərq etdi.

Hər görüşdə bir məsələdən – qəribliyin ağır dərd olduğundan danışır, bir də başqa yerlərdə yaşayan soydaşlarımızın ana dillərinə münasibətindən narahat olduğunu söyləyirdi. Deyirdi ki, arabir şeirlər də yazıram.Çalışıram ki, şeirlərimdə üç təməl daşı özünü əks etdirsin: ana dilinin bütün incəliklərinə bələdlik; milli – mənəvi dəyərlərə böyük ehtiram və yüksək vətənpərvərlik.

Yaqut Neymətov şeirlərinin birində yazır:

Amansız ayaqda, ağır illərdə,
Könlümün həmdəmi yalnız vətəndir!
Nə qədər yaşasam qürbət ellərdə,
Ömrümün hər dəmi yalnız vətəndir!

O, millətin maddi və mənəvi bütövlüyü,qədim türk dünyasının əzəməti uğrunda haray çəkirdi...

Belə bir qlobal düşüncəyə, həssas qəlbə malik idi Yaqut Neymətov. Bu boyda problemlərin qarşısında belə bir həssas ürək necə dözərdi....

ALLAH RƏHMƏT ELƏSIN!

YAQUTSUZ GÜNLƏR...

Gəlimli – gedimli dünyamızda ən ağır, canüzücü söhbət yəqin ki, Insan haqqında keçmiş zamanda danışmaqdır – Yaqut haqqında. Ancaq həyatın dəyişməz, sərt qanunları belə söhbətləri zəruri etdiyindən hər görüşdə, hər məqamda, gələcəkdə, qurub yaratmaqdan, müzakirələrdən, hətta mübahisələrdən yorulmadığımız halda, indi həmin astanada ayaq saxlamaq, keçilmiş yola bir nəzər salmaq məcburiyyətindəyik... Yaqut haqqında...

Elə bir şəxs haqqında ki, həyatı çoxları, o cümlədən gənclər üçün bir örnəkdir...

Moskvanın qaynar elmi axtarışlar burulğanının mərkəzində dövr edən gənç alim Yaqut Neymətovun adı iyirminci əsrin sonu, iyirmibirinci əsrin əvvəlləri üçün səciyyəvi olan qloballaşma prosesinin tələblərinə müvafiq olaraq meydana çıxmış yeni fənnlərarası elmin-sinergetikanın əsasını qoyan alimlərin ön sırasında çəkilməyə başlamışdır. Sinergetika isə-istər dəqiq, istərsə humanitar-bütün elmlərin universal qanunauyğunluqlarını axtarıb aşkar edən elm sahəsidir. Bu baxımdan Yaqut Neymətovun apardığı axtarışlar yalnız ümumi elmi-nəzəri sahədə yox, həmçinin ədəbiyyat, incəsənət və mədəniyyət sahələri üçün xüsusi əhəmiyyət daşıyır. Yəqin ki, alimin Azərbaycan klassik ədəbiyyatının və mədəniyyətinin incilərini dünya miqyasında təbliğ etməsi, qoruyub-saxlamağa yönəlmiş fəaliyyəti, o cümlədən "Gürcüstan" qəzetində böyük Nizami, Sabir və digərləri ilə bağlı publisistikası ictimaiyyətin diqqət mərkəzindən yayınmamışdır.

Ömrünün 60-na bir addım qaldığı bir vaxtda Yaqut Neymətovun ömür kitabının ilk səhifələrində Rusiya Təbiət Elmləri Akademiyasının akademiki, Beynəlxalq Pedaqoji Təhsil Akademiyasının akademiki, Rusiya Yazıçılar İttifaqının üzvü və s. və i. a.-2002-ci ildən isə Effektiv Təhsil Fondunun rəhbəri adları qeyd olunmuşdur.

Bir yay axşamı Moskvadan Bakıya iki gəncin xoşbəxtlik saatının şahidi olmaq üçün gəlmiş Yaqut Məhəmməd oğlu, oradan da doğma yurdu Qardabanidə ata evini ziyarət etmək niyyətindəymiş. Elə, deyilənə görə, toyxanada ilk görüşdə Qarayazı elləri barədə soraqlaşmış, məmnunluqla gülümsəyərək başını masa yoldaşının çiyninə qoymuşdur. Sən demə, bu onun əbədiyyət yuxusuymuş. İndi o vaxtdan qırx gün keçir...

...Zaman öz axarında. Ancaq Yaqutsuz... Bu sərt həyat həqiqəti onun ailə üzvlərinin, qohum-əqrabasının, yaxınlarının, eloğlularının hüzündə, məlul, yaslı baxışlarında, görünür, hələ uzun müddət davam edəcəkdir...

SULEYMAN ƏFƏNDİ

YÜZ YAŞAMAQDAN DÜZ YAŞAMAĞI ÜSTÜN TUTAN ŞƏXSİYYƏT

Xalqımızın dəyərli oğlu bir ildir ki, aramızdan getmişdir. Geriyə dönüşü olmayan yola çıxan görkəmli alim, gözəl ailə başçısı, millətin sevgisini qazanmış, Yaqut Məhəmməd oğlu Neymətovun yoxluğu ailəsini, doğmalarını, elm dünyasını, yaxılarını kədərləndirdiyi kimi məni də çox üzdü.Onun sinif yoldaşı, uşaqlıq dostu kimi və nəhayət, onunla qürur duyan, insanlardan biri olaraq bu itki ilə heç zaman barışmayan insan kimi onun şərəfli həyatını bir daha xatırlamağı özümə borc bildim.

Yaqut Neymətov 1954- cü ildə Qardabani rayonunda dünyaya gəlmiş, 1970-ci ildə Qardabani orta məktəbini bitirmiş, həmin ili Azərbaycan Dövlət universitetinin fizika fakültəsinə daxil olmuşdur. 1973-cü ildə yüksək qabliyyətinə görə ulu öndər Heydər Əliyev tərəfindən kəşf edilmiş istedadlı tələbələrdən biri kimi Lomonosov adına Moskva Dövlət universitetinə təhsilini davam etdirməyə göndərilmişdir. 1984-cü ildə dissertasiya işini başa çatdırşb fizika –riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almış, sabiq SSRİ Elmlər Akademiyasında baş elmi işçi vəzifəsini tutmuş, Moskva Rabitə Akademiyasında müəllimlik etmişdir.

Pedaqoji elmlər doktoru alimlik dərəcəsinə yüksəlmiş, 2002-ci ildə ona professor rütbəsi verilmişdir.

Yaqut Neymətov Rusiya Təbiət Elmləri Akademiyasının akademiki, Beynəlxalq Pedaqoji Təhsil Akademiyasının akademiki, Rusiya Yazıçılar İttifaqının üzvü və bir neçə birliyin üzvü olmuş, 2002-ci ildən effektiv təhsil fondunun rəhbəri vəzifəsində çalışmışdır. O, 70-dən artıq elmi əsərin müəllifi kimi birliyin, barışın, dostluğun, mehribançılığın tərəfdarı, milli məməviyyatın, adət- ənənələrin, mədəniyyətin qorunub saxlanmasını əsas tutardı. Millətin tarixini, keçmişini layiqincə öyrənib, öz həyatını yaşayıb, yaradıb.

Saxtakarları töhmətləyərdi, qınayardı. Heç zaman şəxsi mınafeyi önə çıxarmazdı. Yaqut mənalı ömrünü oxumağa , öyrənməyə, elmə həsr etmişdir. Doğrudur, çox qısa ömür sürdü, amma bu ömrü layiqincə, şərəflə, namusla başa vurdu və sübut etdi ki, yüz yaşamaqdan düz yaşamaq yaxşıdır.

İnsan bu dünyada oxumaqla, yazıb yaratmaqla dünyanı, təbiəti tanıya bilir və ən əsası özünü tanıyır...

Yaqut Neymətov həyata elmi gözlə baxır və bütün dərdlərinin dərmanını elmdə axtarırdı. Elmsiz, bilgiziz həyatın boş, sıxıntılı olduğunu dərindən dərk edirdi. O, hər zaman insanların elmə yiyələnməsini istəyirdi. Deyərdi bilgi sahibləri yaxşını pisdən, haramı halaldan, doğrunu yalandan ayrıd edə bilərlər. Yaqut nizam intizamlı bir şəxs idi. Hər atdığı addıma, söylədiyi kəlməyə diqqət edərdi. Ömrünün sonunadək haqq üçün, millət üçün, vətən üçün yorulmadan çalışdı. O gözəl insan elmin ən dərinliklərinə qıy vurdu, oradan da elmin ən yüksək zirvəsinə ucalıb mən də varam, deyib adını elmin "şərəf lövhəsinə" qızıl həriflərlə həkk etdirdi.

Allah insanlara üç xüsusiyyət verib: insanlıq, dürüstlük, ağıl. Bu üç xüsusiyyətə malik insanlar həyatda eç zaman büdrəməz, uğursuzluğa düçar olmazlar. Bunun hamısı Yaqutda cəmləşmişdi. O, dərin dini anlayışa da malik idi. Görüşlərimizin birində sual verdim: sizin Moskvada çalışdığınız elm adamlarının içində Allahın varlığına inanan varmı? Cavabı belə oldu: Allahın varlığına inanmayan nə alim ola bilər, nə də Əxlaq sahibi. Zatən bütün alimlər Allahın yaratdıqlarını, qanunlarını oxuyaraq alimlik səviyyəsinə ucalırlar. O mübarək insan həyatda hər zaman Allaha, elminə əxlaqına dayanaraq hərəkət edirdi...

Yaqut Neymətov həm zahirən, həm də qəlbən çox mülayim xasiyyətli idi. Hiylə ilə məkirbazlıqla işi olmazdı. Elmi başarıları ilə öyünməyən xeyirxah, mərhəmətli qardaş idi.

Bir söhbətimizi də xatırladım: "Həyat boş vəəyləncədir, düya malı aldadıcıdır. (Yalan dünya, yalan dünya, insanları əyləndirib,sonra yola salan dünya), hər şey taledən asılıdır, heç kim başqasına zərər və xeyir vermə gücünə qadir deyil, kiçikdən tutmuş böyüyə qədər, azdan tutmuş çoxa qədər hər nə varsa, qəzanın əlindədir, kimin alnına nə yazılıbsa. O da başına gələcəkdir. İnsan gücü nə olanların nə də ölənlərin qarşısını ala bilər.

Kədər, qəm, aclıq, xəstəlik, qəriblik və s. Ancaq bunların hər birinə dözmək olar. Dözülməyən bu düyaya gəlib, faydalı iş görmədən, oxumağı bacarmadan bər-bəzəyə aşiq olub, həyatını çoş xərcləyib ölməkdir"- dedi Yaqut.

Yaqut bütün sınaqlardan alnıaçıq, üzüağ çıxdı və əminəm ki, Allahın izniylə axirət sınağında da üzüağ çıxacaqd...

Sevimli qardaşım, məkanın cənnət olsun, məzarında rahat uyu! Sən insanlıq adına, millətin adına üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdin! Bu şərəfli həyatın üçün Sənə nə qədər təşəkkür etməkdə azdır. Sənin bizlərə yaşatdığın gözəlliklər qarşısında, başarıqlı elmin qarşısında, gözəl ailə və gözəl dostluğun, qardaşlığın qarşısında baç əyirik. Sən ölmədin, aramızdan ayrılan Sənin cismindir! Sən həmişə qəlbimizdə yaşayacaqsan. Bu bizim qəlbimizi qürurlandırır!

NİZAMİ MURTUZOĞLU

Qardabani

Y A Q U T A

Amansız fələyin sərt qərarından,
Qürurlu, vüqarlı bir dağ yıxıldı.
Qohum-əqrabanın, dostun-tanışın,
Gözləri qaraldı, qəlbi sıxıldı.

Bir işıq parlayıb getdi dünyadan,
Arzu-istəkləri yarımçıq qaldı.
-Nə səndən doyuldu, nə sən dünyadan,
Geridə tükənməz xatirə qaldı.

Vətəndən uzaqda, qürbət diyarda,
Millətin başını uca eylədin.
Şimal rüzgarında, ali kürsündə,
Sən elmi danışdın, doğru söylədin.

Görsətdin hünəri elm, savadla,
Nümayiş etdirdin öz yurdunu sən.
Çıxsa da qarşına hər cür cətinlik,
Bacardın, doy gəldin əngəllərə sən.

Zamanın gücünü elmdə gördün,
Tarix bir sübutdur, dəlildir buna.
Keçsə zaman belə, keçsə il belə,
Borçalı ehtiyac duyacaq sənə.

Sən böyük oğluydun türk dünyasının,
Fəxrdir, qürurdur bu bizim üçün.
Xatirən qəlblərdə yaşayacaqdır,
Qürur mənbəyisən sən Turan üçün.

CƏFƏR TÜRKOĞLU
(MUSTAFALI)

2009
Я.М.НЕЙМАТОВ
ОБРАЗОВАНИЕ В XXI ВЕКЕ
НАЦИОНАЛЬНЫЙ ИНТЕРЕС
ТЕНДЕНЦИИ И ПРОГНОЗЫ
Нейматов
Ягут Мамедович
Нестандартные суждения
Москва 2008
Köngül nalысы
Köngül nalysi
ФОНД РАЗВИТИЯ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ
Я.М.НЕЙМАТОВ
Формирование инновационной культуры и внедрение прогрессивных технологий в странах СНГ:
ПРОБЛЕМЫ, ТЕНДЕНЦИИ, ПЕРСПЕКТИВЫ